

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 211 (21.872)

7 noyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Noyabrın 6-da metronun "İçərişəhər" stansiyasında Bakı Metropoliteninin 50 illik yubileyi ilə əlaqədar metropolitendə istismar edilmiş retro vaqonların bərpadan sonra təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev retro vaqonlarla tanış olub.

Qeyd edək ki, Mıtişşi maşınqayırma zavodunda istehsal olunan ilk belə retro vaqonlar "A" tipli vaqonlar adlandırılıb. Bu vaqonlar 1934-cü ilin sonunda hazırlanıb. Həmin vaqonlarda oturmaq üçün 52 və ayaq üstə dayanmaq üçün isə 120 yer var idi. Bu tipli vaqonlardan biri 1968-ci ildə yol ölçmək üçün Bakıya göndərilib.

Təqdimatı olan "E" tipli digər vaqonların hazırlanmasına isə 1956-cı ildə başlanılıb. "E" tipli ilk sınaq vaqonu 1959-cu ilin sonlarında istehsal olunub. Bu tipli vaqonlar Sovet İttifaqı dövründə beş şəhərin – Moskva, Leninqrad, Kiyev, Bakı və Tbilisinin metropolitenlərinə göndərilib. Bakıya "E" tipli 47 ədəd vaqon çatdırılıb.

Sonra Prezident İlham Əliyev retro vaqonlardan ibarət qatarla "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına gəlib.

Retro vaqonlarla tanış olan Prezident İlham Əliyev 50 illik yubileyi münasibətilə Bakı Metropoliteninin kollektivini təbrik edib, yeni-yeni uğurlar arzulayıb.



## Naxçıvanda yeni badam bağı salınıb



"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" uğurla icra olunur. Hər il ənənəvi və məhsuldar meyvə sortlarından ibarət yeni bağlar salınır. Badamçılıq da Naxçıvanda qədim meyvəçilik sahələrindəndir. İqlim şəraiti və torpaq xüsusiyyətləri muxtar respublikada badamçılığın inkişafına və bu sahə üzrə məhsul istehsalının artırılmasına imkan verir.

Noyabrın 4-də muxtar respublikada növbəti iməcilik keçirilmiş, Naxçıvan-Sədərək avtomobil yolunun kənarında – Kəngərli rayonunun Xok kəndi ərazisində yeni badam bağı salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kəngərli Rayon İcra Hakimiyyətinin kollektivləri badam bağı salınan ərazidə keçirilən iməcilikdə iştirak etmişlər.

Badam bağının sahəsi 6 hektardır. Ərazidə meliorativ və aqrotexniki tədbirlər görülmüş, torpaq əkinəyararlı hala salınmışdır. İməcilik iştirakçıları ərazidə 3 mindən artıq yerli badam tingi əkmişlər. Ötən il ərazidə qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi badam bağının dayanıqlı su təminatına da imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, payız iməcilikləri dövründə yeni meyvə bağlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərur rayonunun Ələkli kəndi müasir yaşayış məntəqəsinə çevrilib

Muxtar respublikanın kəndlərində müasir infrastrukturun yaradılması və yeni sosial obyektlərin istifadəyə verilməsi insan amilinə göstərilən dəyərin daha bir ifadəsidir. Aparılan quruculuq işləri kəndlərdə idarəetmənin səmərəli təşkilinə, gənc nəslin hərtərəfli təhsil almasına, məskunlaşmanın artmasına, sakinlərin isə rahat və firavan yaşayışına xidmət edir. Muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan Şərur rayonuna da bu inkişaf və tərəqqidən pay düşmüşdür. Son illər rayonun kəndlərində kompleks quruculuq işləri aparılmışdır.

Noyabrın 6-da Şərur rayonunun Ələkli kəndində yeni sosial obyektlərin açılışı olmuşdur.

## Ələkli kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir



Noyabrın 6-da Ələkli kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikanın digər yaşayış məntəqələri kimi, Şərur rayonu da yeni inkişaf mərhələsinə yüksəlmişdir. Kəndlərin abadlaşması, fərdi təsərrüfatların genişlənməsi və yeni iş yerlərinin açılması insanların rahat yaşayışına və məskunlaşmanın artmasına səbəb olmuşdur. Bu ilin ötən dövründə Şərur rayonunda 3 məktəb binası, 3 kənd mərkəzi, 3 xidmət mərkəzi, rayon Mərkəzi Xəstəxanası tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Ərəbyengicə kəndində tam orta məktəbin, həkim ambulatoriyasının, kənd və xidmət mərkəzlərinin tikintisi, Yengicə kəndində XVIII əsrə aid hamamın bərpası, Şərur şəhərində 60 mənzilli yaşayış binasının yenidən qurulması, eləcə də Şərur şəhərinin içməli su və kanalizasiya xətlərinin çəkilişi davam etdirilir.

Ələkli kənd tam orta məktəbinin direktoru İsrafil Quliyev demişdir ki, geniş quruculuq işlərinin aparılması Ələkli kəndini müasir kəndlərin sırasına qoşub. Kənddə müasirtipli məktəb binasının istifadəyə verilməsi təhsilin inkişafına göstərilən qayğının davamıdır. İsrafil Quliyev yaradılan hərtərəfli tədris şəraitinə görə kollektiv adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tövsiyə edirdi ki, ***"Ölkəmizin gənclərini təhsilli etmək üçün müasir tələblərə cavab verən məktəb binalarının tikilməsi ilə məşğul olmalıyıq".*** Müasir məktəb binasında tədrisin təşkili üçün lazımi şərait yaradılır, kitabxana, idman qurğuları, laboratoriyalar, fənn kabinələri istifadəyə verilir, yeni texnologiyalar və ən son tədris metodları tətbiq olunur. Bu gün istifadəyə verilən Ələkli kənd tam orta məktəbində də müasir tədrisin tələblərinə uyğun qurulub.

Ali Məclisin Sədri bu münasibətlə kollektivi təbrik edərək demişdir: Məktəbdə elektron lövhələr, kompüter sinifləri, zəngin kitabxana, gənclərin sağlam böyüməsi üçün idman qurğuları və zalı istifadəyə verilmiş, təhsil ocağı bütün fənlər üzrə ixtisaslı müəllimlərlə təmin olunmuşdur. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, təhsilli gənclər yetişdirilməlidir. Orta məktəbi bitirən hər bir gənc özünə peşə seçməli, ölkəmiz üçün yararlı vətəndaş kimi yetişməlidir. Təhsilli, vətənpərvər və peşə sahibi olan gənclərin hazırlanması isə müəllimlərin qarşısında duran əsas vəzifədir. Məktəbin nailiyyətləri onu deməyə əsas verir ki, tədris düzgün qurulub. Yaradılan şəraitdən səmərəli istifadə nailiyyətlərin daha da artmasına və Ələkli kənd tam orta məktəbinin muxtar respublikanın qabaqcıl məktəbləri sırasına qoşulmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri bir daha kollektivi təbrik etmiş, məktəb binasının tikilməsində əməyi olanlara təşəkkür etmişdir.

3 mərtəbəli məktəb binası 234 şagird yerlikdir. Binada 3-ü elektron lövhəli olmaqla 12 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır.

Ali Məclisin Sədri kitabxanada, sinif otaqlarında və fənn kabinələrində olmuş, tədrisin təşkili ilə maraqlanmışdır.

Məktəbin kitabxanasında 1030-u dərslik və 2160-ı bədii ədəbiyyat olmaqla 3190 kitab müəllim və şagirdlərin istifadəsinə verilmiş, oxunması zəruri olan kitablardan ibarət guşə yaradılmışdır. Kimya-biologiya və fizika

Ardı 2-ci səhifədə





laboratoriyaları tədris planına uyğun təcrübi avadanlıqlarla təmin olunmuş, dəqiq elmlər üzrə elektron dərslik bazası yaradılmışdır. Tədris prosesində yeni texnologiyaların tətbiqinə geniş yer verilmiş, 19 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli sinifdə muxtar respublikanın 201 ümumtəhsil məktəbi ilə Hüseyn Cavidin ev-muzeyi arasında keçirilən distant dərs izlənilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri onları təbrik etmiş, məktəbdə yaradılan müasir şəraitin tədrisin hərtərəfli təşkilinə imkan verəcəyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Gənc müəllim Sahil Əlizadə pedaqoji kollektiv adından minnətdarlıq edərək demişdir: Bu gün muxtar respublikada gənclərə xüsusi qayğı göstərilir, onlar səhiyyə, mədəniyyət, təhsil, dövlət qulluğu və digər sahələrdə işlə təmin olunurlar. Mən də bu il keçirilən təhsil yarmarkasında iştirak edərək Ələkli kənd tam orta məktəbinə təyinat almışam. Məktəbdə ingilis dili fənnini tədris edirəm. Fəaliyyətim üçün hər cür şərait yaradılıb. Müasir məktəb binasının istifadəyə verilməsi məsuliyyətimizi daha da artırır. Söz veririk ki, göstərilən etimadı doğruldacaq, gənclərin hərtərəfli təhsil alması üçün səylə çalışacağıq.

Binanın həyətində də abadlıq işləri aparılmış, bufet və açıq idman qurğuları istifadəyə verilmişdir.

## Ələkli Kənd Uşaq Musiqi Məktəbi yeni binada fəaliyyət göstərəcək



Muxtar respublikada gənc nəslin təhsili ilə yanaşı, onların istedad və bacarıqlarının üzə çıxarılmasına, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirilir. Məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin təmin olunması və uşaq musiqi məktəbləri üçün müasir binaların istifadəyə verilməsi bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Noyabrın 6-da Ələkli Kənd Uşaq Musiqi Məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, musiqi məktəbində 23 sinif otağı, direktor otağı, müəllimlər otağı, konsert zalı, musiqi alətlərinin təmiri otağı və kitabxana vardır. Kitabxana musiqi nəzəriyyəsinə aid tədris vəsaitləri və ədəbiyyatlarla təmin olunmuşdur. Müasir inventar və avadanlıqlarla təchiz edilmiş məktəbdə şagirdlərin istifadəsinə 5 pianino verilib. Musiqi məktəbində xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər şöbələri fəaliyyət göstərir, tar, kamança, fortepiano, qarmon, nağara və saz ixtisasları üzrə musiqiçi kadrlar hazırlanır. Həmçinin məktəbdə xalq çalğı alətləri, sazçalanlar və nağaraçalanlar ansamblları, xor kollektivi və uşaqlardan ibarət həvəskar yallı qrupu da yaradılmışdır.

Ali Məclisin Sədri kitabxananın musiqi nəzəriyyəsinə aid dərslik və ədəbiyyatlarla zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

Musiqi alətlərinin təmiri otağına baxış zamanı milli musiqi alətlərinin təmiri və hazırlanması ilə məşğul olan gənc sənətkar Rəşad Həsənli minnətdarlıq edərək demişdir ki, o, milli musiqi alətlərinin hazırlanması üzrə kurs keçib. Bu sahəyə böyük marağı var. Yaradılan şərait daha səmərəli fəaliyyət göstərməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri hazırlanan milli musiqi alətlərinə baxmış, gənc sənətkarların fəaliyyəti üçün bundan sonra da lazımi şəraitin yaradılmasının vacibliyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri musiqi məktəbinin müəllimləri ilə görüşmüş, onları yeni binanın istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün Ələkli Kənd Uşaq Musiqi Məktəbində 3 şöbədə 6 ixtisas üzrə musiqi dərsləri keçirilir. Ətraf kəndlərdən olan gənclər də məktəbdə musiqi təhsili alır. Bu da gənclərin asudə vaxtının səmərəli təşkili, onların istedadının üzə çıxarılması və milli musiqimizin yaşadılması baxımından mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait imkan verəcəkdir ki, məktəbə daha çox gənclər cəlb olunsun, tədris olunan ixtisasların sayı artırılsın.

Ali Məclisin Sədri demişdir: Musiqi duyumu olanlar, musiqi alətlərində ifa etməyi bacaranlar xüsusi istedada malik insanlardır. Bu istedadların üzə çıxarılması, qədim və zəngin musiqi ənənələrimizin davam etdirilməsi isə kollektivin qarşısında duran əsas vəzifələrdir. Müəllimlər milli musiqimizlə yanaşı, dünya musiqisini də gənc nəslə öyrətməlidirlər. Naxçıvan Musiqi Kollecində və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində müxtəlif ixtisasların fəaliyyət göstərməsi musiqi məktəbini bitirən gənclərin öz təhsillərini davam etdirməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Məktəbin müəllimi Aidə Əsgərova minnətdarlıq edərək demişdir ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, mədəniyyətin inkişafına da daim diqqət və qayğı göstərilir. Şəhər, qəsəbə və kəndlərdə müasir mədəniyyət ocaqlarının, o cümlədən musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Ələkli Kənd Uşaq Musiqi Məktəbi üçün müasir binanın inşa olunması kollektivin sevincinə səbəb olmuşdur. Müəllimlər yaradılan şəraitdən səmərəli istifadə etməklə üzərlərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcəklər.

Konsert zalında Ələkli Kənd Uşaq Musiqi Məktəbinin şagirdləri maraqlı musiqi nömrələri təqdim etmişlər.

Ali Məclisin Sədri musiqi nömrələrini izləmiş, şagirdləri uğurlu çıxışlarına görə təbrik etmişdir.



## Dövlət qurumları yeni kənd mərkəzində fəaliyyət göstərəcəkdir





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ələkli Kənd Mərkəzinin də açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kənd mərkəzinin birinci mərtəbəsində kitabxana, rabitə evi, feldşer-mama məntəqəsi, polis sahə və baytarlıq məntəqələri yerləşir. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika otağı, mədəniyyət evi üçün otaqlar

Ardı 3-cü səhifədə

və 42 yerlik zal isə binanın ikinci mərtəbəsindədir. Əhalinin maariflənməsində və asudə vaxtın səmərəli təşkilində əvəzsiz rolu olan kənd kitabxanasında oxucular üçün lazımi şərait yaradılmışdır. Burada 7472 kitab vardır.

Baytarlıq məntəqəsi üçün ayrılan iş otağında lazımi dərman preparatları qoyulmuşdur. Kənd mərkəzindəki rabitə evində poçt şöbəsinin fəaliyyəti təmin olunmuş, 512 yerlik yeni nəsil Avtomat Telefon Stansiyası quraşdırılmışdır.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Cavid Hüseynov yaradılan şəraitə görə minnətdarlıq etmiş, bu şəraitin fəaliyyətlərini daha da genişləndirəcəyinə imkan verəcəyini bildirmişdir.

Ali Məclisin Sədri kənddə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, feldşer-mama məntəqəsi lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin olunmuşdur. Tibb işçiləri kənddə peyvənd işinin vaxtlı-vaxtında aparılmasına və gigiyenik qaydalara əməl olunmasına ciddi diqqət yetirirlər.

## Ələkli kəndində yeni xidmət mərkəzi və mərasim evinin açılışı olmuşdur






Noyabrın 6-da Ələkli kəndində yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kəndlərdə bu cür xidmət obyektlərinin tikilib istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır. Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzin istifadəyə verilməsi həm də kənddə yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Hazırda burada 6 nəfər daimi işlə təmin olunmuşdur.

Mərkəzlə tanışlıqdan sona Ali Məclisin Sədri sakinlərlə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir: Kəndlərdə abadlıq-quruculuq işlərinin aparılması, yeni sosial obyektlərin istifadəyə verilməsi insanlarda ölkəmizin sabahına inam yaradır. Bu gün Ələkli kəndində geniş quruculuq işlərinin aparılması, yeni sosial obyektlərin istifadəyə verilməsi müstəqil Azərbaycan dövləti tərəfindən həyata keçirilmişdir. Ələkli kəndi müasir Azərbaycan kəndinin nümunəsidir. Kənddə yaradılan şərait sakinlərin rahat yaşayışına xidmət edir. Ona görə də sakinlər uzun illər ərzində formalaşmış təsərrüfat ənənələrini davam etdirməli, torpaqları əkməli, Ələkli kəndinin bugünkü müasir görkəmini qoruyub saxlamalıdırlar.

Kənd sakini Vaqif Bayramov minnətdarlıq edərək demişdir: Aparılan quruculuq işləri və yaradılan müasir infrastruktur Ələkli kəndinə qəsəbə görkəmi verib. Kəndin bütün sosial problemləri həll olunub. Artıq övladlarımız müasir məktəbdə təhsil alacaqlar. Kənd sakinləri əsasən əkinçiliklə məşğul olurlar. İstehsal etdiyimiz məhsulu bazar və yarmarkalarda rahat şəkildə satırıq. Bu da imkan verir ki, təsərrüfatlarımızı daha da genişləndirək.

Həmin gün Ali Məclisin Sədri kənddə tikilən yeni mərasim evinə də baxmışdır.

Kənd ağsaqqalı Arif Kazımov demişdir: Bu gün Ələkli kəndinin həyatında əlamətdar gündür. Aparılan quruculuq işləri kəndlər tərəfindən minnətdarlıqla qarşılanır. Yeni mərasim evinin tikilməsi sakinlərin rahatlığını təmin etməklə yanaşı, həm də bizim dəyərlərimizə hörmətin bariz nümunəsidir. Bütün bunları görərkən bir daha əmin oluruq ki, ulu öndərimiz Heydər Əliyevin arzuları reallığa çevrilib.

Sonra iki zal və mətbəxdən ibarət olan mərasim evinə baxış olmuşdur. Binaya su, elektrik və qaz xətləri çəkilmiş, mətbəx zəruri inventarla təchiz edilmişdir.

## Kənd yolu müasir tələblərə uyğun qurulmuşdur



Noyabrın 6-da Ələkli kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 5300 metrlik avtomobil yolunun hərəkət hissəsi genişləndirilərək asfalt örtük salınmışdır. Yolda tikinti işləri mühəndis-texniki tələblərə uyğun aparılmış, 125 su keçidi, 2 su ötürücü qoyulmuş, 2230 metr uzunluğunda beton kanal çəkilmişdir.

* * *

Ələkli kəndində quruculuq işləri aparılarkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə rabitə, elektrik, qaz və su xətləri yenilənmiş, 2310 metr fiber-optik kabel, 13 min 580 metr rabitə, 670 metr elektrik və 380 metr qaz xətti çəkilmiş, əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədi ilə 1 kilometrlik içməli su xətti bərpa olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Nuh Peyğəmbərin vətənidir







2016-cı ilin sentyabr ayına qədər Nuh Peyğəmbərin həqiqi vətəni haqqında məlumatımız yox idi. Mən həyat yoldaşım ilə Türkiyənin şərq hissəsinə – İqdır şəhəri istiqamətində hərəkət edərkən yolda Naxçıvan yazılmış lövhə gördük və Naxçıvan barədə bələdçidən məlumat aldıq. O bildirdi ki, Naxçıvan Türkiyə ilə sərhəddə yerləşir. Həmin andan mənim diqqətim bu əraziyə yönəldi. Çox təəssüf ki, həmin vaxt bizim xüsusi bir tur proqramımız var idi və həmin proqrama Türkiyə sərhədlərindən kənarda olan bir ərazini daxil edə bilməzdik.

2017-ci ilin yanvar ayından etibarən mən internet üzərindən və kitablardan Naxçıvan barədə məlumatlar toplamağa başladım. Hər bir axtarışdan sonra Naxçıvana daha da heyran oldum. Lakin əldə etdiyim məlumatlar mənə kifayət etmirdi. Həmçinin bələdçi kitabımda da Naxçıvan barədə az məlumat var idi.

Qərblilər, əsasən, katoliklər və ümumiyyətlə, xristianların protestantları "Tövrat" kitabı və Nuh Peyğəmbərin gəmisi haqqında məlumatlara malikdirlər. Lakin Nuh Peyğəmbərin gəmisinin yeri, onun vətəni və ailəsi barədə dünyada çox az məlumat var. Bu ərazi haradadır? İndi bu suala mən cavab verirəm: Naxçıvan Nuh Peyğəmbərin vətənidir.

Naxçıvana səfərimiz 2017-ci ilin oktyabr ayında reallaşdı. Naxçıvan Avrasiya və Qafqaz regionunda yerləşən Azərbaycan Respublikasının tərkibində muxtar respublikadır. Bəşəriyyətin beşiyi, Nuh Peyğəmbərin vətəni olan Naxçıvan səyahət etdiyimiz ən təsirli və maraqlı yerlərdən biridir. Naxçıvan ağaclarla əhatə olunmuş son dərəcədə təmiz və geniş küçələri olan müasir şəhərdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası min ildən artıq tarixi olan abidələri ilə seçilir. Orijinal formada yenidən təmir edilən bu abidələr səyahətçilərin diqqətini çox cəlb edir. Naxçıvanda gördüklərim mənim gözləntilərimi xeyli üstələdi. Mən və həyat yoldaşım ərazinin qədim tarixi abidələrinə, xüsusilə də insanların qonaqpərvərliyinə və mehribanlığına heyran olduq. Naxçıvanda çəkdiyimiz minlərlə fotoşəkli ən xoş xatirə kimi saxlamaqla yanaşı, dostlarımıza da göstəririk.

**Luiz ELEODORO,**
**Sanora PAUZTİNİO**
**Braziliyanın San-Paulo şəhər sakinləri**

## Ali təhsil ocağında konfrans keçirilib



***Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən "Həkimlərin etik davranışları" mövzusunda konfrans keçirilib.***

Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq muxtar respublikada səhiyyənin müasir vəziyyəti və inkişafı istiqamətində görülən tədbirlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva "Tibb fakültəsi: tələbələr və həkim deontologiyası" mövzusunda məruzəsində bildirib ki, əhalinin sağlamlığının qorunması dövlətin öz vətəndaşlarına göstərdiyi xüsusi qayğıdan irəli gəlir. Bunun həyata keçirilməsində həkimin peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin rolu böyükdür. Buna görə də həkimlərin fəaliyyətinin səmərəliliyinin artırılması, onlara ictimai etimadın yüksəldilməsi üçün etik davranış qaydalarının müəyyən olunması vacib və əhəmiyyətli məsələlərdən biridir.

"Həkimlərin etik davranış qaydaları" mövzusunda məruzə edən Səhiyyə Nazirliyinin şöbə rəisi Səmayə İbrahimova qeyd edib ki, bu il iyunun 29-da Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin əmri ilə "Həkimlərin etik davranış qaydaları" təsdiq edilərək icraya götürülüb. Bu qaydalar səhiyyə qanunvericiliyini, insan hüquqlarını, demokratik prinsipləri və ümumi etik davranışları rəhbər tutur.

Konfransda Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov "Tibbi etika: qayda və prinsiplər" və universitetin Müalicə işi ixtisası üzrə VI kurs tələbəsi Əminə Seyidzadə "Həkim-xəstə və həkim-cəmiyyət arasındakı etik münasibətlər" mövzularında məruzə ediblər.

Vurğulanıb ki, həkim-xəstə münasibətləri həkimlik etikası və bioetikanın başlıca problemidir. Həkimin etibarlılığı, sənətinə vicdanla yanaşması, xeyirxahlığı, xəstəyə fərdi yanaşması müalicənin mühüm şərtləri sırasındadır.

Konfransın sonunda universitet tərəfindən Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatova və konfransda iştirak edən tələbələrə sertifikatlar təqdim olunub.

**Nərmin CABBAROVA**

## Boks üzrə açıq birinciliyə yekun vurulub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək və Kəngərli rayonlarının idmançıları da öz güclərini sınayıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 20 çəki dərəcəsində 60-a yaxın dəri əlcək sahibi rinqə çıxıb.



Sonda hər çəki dərəcəsində yer tutan idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 945 | 67,1 | 67,4 | 100,4 |
| 2. | Şahbuz rayonu | 532 | 37,8 | 37,9 | 100,3 |
| 3. | Kəngərli rayonu | 738 | 52,4 | 52,5 | 100,2 |
| 4. | Ordubad rayonu | 1183 | 84,0 | 84,1 | 100,1 |
| 5. | Naxçıvan şəhəri | 3530 | 251,0 | 251,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1893 | 134,4 | 134,4 | 100,0 |
| 7. | Babək rayonu | 1915 | 136,0 | 136,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 232 | 16,4 | 16,4 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18310 | 1647,9 | 1647,9 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29278** | **2427,0** | **2427,6** | **100,0** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 29 milyon 278 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 427 min manat olmuş, cəmi 2 milyon 427 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin oktyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1387514 | 187964 | 221641 | 117,9 |
| 2. | Culfa rayonu | 431014 | 55250 | 55507 | 100,5 |
| 3. | Ordubad rayonu | 506168 | 63763 | 64001 | 100,4 |
| 4. | Şərur rayonu | 760428 | 94860 | 95106 | 100,3 |
| 5. | Şahbuz rayonu | 274161 | 36513 | 36571 | 100,2 |
| 6. | Kəngərli rayonu | 284198 | 37778 | 37827 | 100,1 |
| 7. | Babək rayonu | 811506 | 110314 | 110382 | 100,1 |
| 8. | Sədərək rayonu | 88978 | 10598 | 10599 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5010850 | 1001922 | 985256 | 98,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **9554817** | **1598962** | **1616890** | **101,1** |

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu
### *prokurorluq orqanlarına işə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Prokurorluğu Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 09 ştat vahidi üzrə müsabiqə elan edir.

Prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər aşağıda qeyd edilən sənədləri təqdim etməklə Naxçıvan Muxtar Respublikası Prokurorluğuna müraciət edə bilərlər:

*- müəyyən olunmuş formada ərizə;*

*- şəxsiyyət vəsiqəsinin əsli və notariat qaydasında təsdiq edilmiş surəti;*

*- ali təhsil haqqında (hüquqşünaslıq və ya beynəlxalq hüquq ixtisası üzrə) diplomun, diploma əlavə olunan qiymət cədvəlinin əslləri və notariat qaydasında təsdiq edilmiş surətləri;*

*- 4x6 santimetr ölçüdə 4 ədəd ağ fonda rəngli fotoşəkil.*

Sənədlər Naxçıvan şəhəri, Atatürk küçəsi 22-də yerləşən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasının qəbul otağında 2017-ci il noyabr ayının 10-dan 2017-ci il dekabr ayının 10-dək hər gün (istirahət və bayram günləri, iş günü hesab edilməyən digər günlər istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədləri təqdim etmək istəyən hər bir namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, prokuror və ya müstəntiq vəzifəsinə yararlılığı və layiqliliyinin müəyyən edilməsi məqsədilə tam aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilən ixtisas imtahanları (test və yazılı imtahanlar) və müsahibədən ibarət müsabiqə təşkil ediləcək, test imtahanı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi Publik Hüquqi Şəxsin Naxçıvan Muxtar Respublikası Regional Bölməsi ilə birgə keçiriləcəkdir. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri bilənlərə üstünlük veriləcəkdir.

Prokurorluğa işə qəbul olunmaq istəyən şəxslərin nəzərinə çatdırılır ki, namizədlərin ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli, onlar Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli və seçkilərdə iştirak etmək hüququna malik olmalıdır. Prokurorluğa işə 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakılar prokurorluğa işə qəbul edilmirlər:

*- ikili vətəndaşlığı olan şəxslər;*

*- digər dövlətlər qarşısında öhdəlikləri olanlar;*

*- din xadimləri;*

*- məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə prokuror və ya prokurorluğun müstəntiqi vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;*

*- alkoqolizm, narkomaniya, toksikomaniya və digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);*

*- əvvəllər məhkum olunmuş, habelə bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına xitam verilmiş şəxslər;*

*- əvvəllər yol verdiyi kobud nöqsanlara və ya prokuror və müstəntiq adı ilə bir araya sığmayan hərəkətlərə görə vəzifədən azad edilmiş şəxslər;*

*- qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar.*

Müsabiqənin test imtahanının yekunlarına görə 70 və daha artıq bal toplamış namizədlər yazılı imtahana buraxılırlar.

Test imtahanının vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş qanunların siyahısı və digər məlumatlar barədə əlavə məlumat veriləcəkdir.

***Əlavə məlumat almaq üçün 545-03-14, 545-03-15 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

## Naxçıvan Muxtar Respublikası üzrə 6 noyabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən: buğda | o cümlədən: arpa |
|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 2446,0 | 2392,0 | 54,0 |
| 2. | Babək rayonu | 5051,0 | 3298,0 | 1753,0 |
| 3. | Ordubad rayonu | 837,0 | 551,0 | 286,0 |
| 4. | Culfa rayonu | 2926,0 | 2508,0 | 418,0 |
| 5. | Kəngərli rayonu | 3042,0 | 1652,0 | 1390,0 |
| 6. | Şahbuz rayonu | 822,0 | 812,0 | 10,0 |
| 7. | Sədərək rayonu | 942,0 | 852,0 | 90,0 |
| 8. | Naxçıvan şəhəri | 458,0 | 421,0 | 37,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16524,0** | **12486,0** | **4038,0** |

### *İtmişdir*

Babək rayonunun Yuxarı Uzunoba kənd sakini Abdullayev Yusif Salman oğlunun adına olan JN-003^A inventar nömrəli, 10311048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 898